*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 6 sentyabr 2017-ci il № 66 (2183) Qiyməti 25 qəpik


## Azərbaycan Prezidenti müddətli həqiqi hərbi xidmətə çağırışla bağlı Sərəncam imzalayıb

Sentyabrın 5-də Prezident İlham Əliyev Azərbaycan Respublikası vətəndaşlarının 2017-ci il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında Sərəncam imzalayıb.

AZƏRTAC xəbər verir ki, Sərəncama əsasən, 1999-cu ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1982-1998-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan vətəndaşları 2017-ci il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılacaqlar.

Həmçinin "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2017-ci il oktyabrın 1-dən 30-dək ehtiyata buraxılacaqlar.

## Rusiyadan Azərbaycana PDM-3 satışı gələn il başa çatacaq

Hərbi piyada döyüş maşınlarının - PDM-3-ün Azərbaycana satışına dair 2010-cu ildə imzalanmış müqavilənin həyata keçirilməsi gələn il başa çatacaq. Bu barədə Rusiyanın TASS agentliyinə hərbi-texniki əməkdaşlıq sistemindən bildiriblər.

Agentlik xatırladır ki, Moskva və Bakı böyük həcmdə silah və texnika satışı barədə 2010-cu ildə razılığa gəliblər. Söhbət 3 batalyon T-90C tankları, özüyeriyən artilleriya, reaktiv yaylım atəş sistemləri, ağır odsaçan sistemlər, eləcə də təmir-təxliyə və mühəndis maşınlarından gedir. Ekspertlər müqaviləni təxminən bir milyon dollar məbləğində dəyərləndirirlər.

**AZƏRTAC**

## General-polkovnik Zakir HƏSƏNOV:

# Dövlətin və xalqın etimadını doğrultmaq əsas məqsədimizdir

## Müdafiə naziri ön xətdə hərbi qulluqçularla görüşüb



*Hər il ölkəmizdə Qurban bayramının yüksək səviyyədə qeyd olunması dövlətimizin milli-mənəvi dəyərlərimizə göstərdiyi diqqətin parlaq təzahürüdür. Belə milli bayramlarımızın keçmiş sovet dövründə müəyyən qadağalarla məhdudlaşdırılmasına baxmayaraq Azərbaycan xalqı daim dəyərli adət-ənənələrini qoruyub saxlayıb.*

Ötən əsrin sonlarında ölkəmizin tarixi müstəqilliyə qovuşması nəticəsində cəmiyyətin bütün sahələrində olduğu kimi, milli dəyərlərimizin inkişafında da mühüm yeniliklər baş verdi. Azərbaycançılıq ideologiyasının geniş təbliği, xalqın dini adət-ənənələrinin, söz və fikir azadlığının inkişafında qazanılan uğurlarımız böyük dövlət xadimi, ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. Təcrübəli siyasi lider tez-tez xalqın arasına çıxaraq insanları düşündürən problemləri öyrənir, milli-mənəvi irsimizin təbliğinə böyük əhəmiyyət verirdi. O, daim tövsiyə edirdi ki, xalqın tarixi keçmişi, nəcib adətləri gənc nəslə dərindən aşılanmalı, cəmiyyət vətənpərvərlik, müstəqillik ideyalarına və mənəvi dəyərlərə sədaqət ruhunda tərbiyə edilməlidir.

**(Ardı 2-ci səhifədə)**

# Azərbaycan və Polşa Müdafiə nazirlərinin görüşü keçirilib

Polşa Respublikasına səfəri çərçivəsində Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov sentyabrın 5-də bu ölkənin Milli Müdafiə naziri cənab Antoni Maçereviçlə görüşüb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşdə ölkələrimiz arasında hərbi, hərbi təhsil, hərbi texniki sahələrdə əməkdaşlığın gələcək perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

Regiondakı və beynəlxalq hərbi-siyasi vəziyyətə toxunan tərəflər bölgədə və dünyada sabitliyin təmin olunmasının əhəmiyyətini vurğulayaraq sıx əməkdaşlığın ölkələrimizin təhlükəsizliyinə və inkişafına töhfə verəcəyini xüsusi qeyd ediblər.



## "Ermənistan xüsusi xidmət orqanlarının dezinformatorları ancaq erməni cəmiyyətini aldada bilərlər"

Son günlər erməni xüsusi xidmət orqanlarının dezinformatorları Azərbaycan Ordusu barədə bir-birinin ardınca müxtəlif məzmunlu uydurma "əhvalatlar", yaxud "sənədlər" hazırlayıb kütləvi informasiya vasitələrinə ötürürlər.

Bununla bağlı AZƏRTAC-ın sorğusuna cavab olaraq Müdafiə Nazirliyi Ermənistan KİV-lərində yayılmış növbəti uydurmadan da xəbərdar olduğunu bildirib. "Bu cür primitiv saxtakarlığı, həqiqətlə hər hansı bağlılığı olmayan iyrənc yalanı şərh etmək istəmirik. Ermənistan xüsusi xidmət orqanlarının dezinformatorları bu cür uydurmaları yaymaqla ancaq erməni cəmiyyətini aldada bilərlər", - deyə nazirlikdən bildirilib.

## General-polkovnik Zakir HƏSƏNOV:

# Dövlətin və xalqın etimadını doğrultmaq əsas məqsədimizdir



(Əvvəli 1-ci səhifədə)

Hazırda Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə müstəqilliyimizin və dövlətçiliyimizin möhkəmləndirilməsi istiqamətində ardıcıl siyasi xətt həyata keçirilir. Hər il Qurban bayramı münasibətilə Prezident xalqı təbrik edir, ən xoş arzularını insanlarla paylaşır və mütərəqqi islami dəyərlərə daim ehtiram göstərilməsini tövsiyə edir.

Son illər Azərbaycan Silahlı Qüvvələrinin hərbi hissə və bölmələrində, müxtəlif qoşun növlərində milli adət-ənənələrimiz də yetərincə qeyd olunur, şəxsi heyət belə günlərin mahiyyətini dərindən başa düşərək qarşıda duran döyüş tapşırıqlarını daha da məsuliyyətlə yerinə yetirir. İnsanları mərhəmətə və paklığa ruhlandıran belə bayramların hərbi hissələrdə keçirilməsi əsgərlərin dünyagörüşünün, vətənpərvərlik duyğularının formalaşmasına zəmin yaradır.

Bir faktı qeyd etmək lazımdır ki, son vaxtlar milli bayramlarımızda Müdafiə Nazirliyinin rəhbər heyəti də ön xəttə səfər edərək düşmənlə üz-üzə mövqelərimizdə əsgərlərlə görüşür, onların xidmət şəraiti ilə yaxından maraqlanır. Belə tədbirlər cəmiyyətdə də birmənalı qarşılanır, xalqın orduya olan inamı daha da artır. Hər kəs əmindir ki, orduda xidmət edən gənclərimiz üçün lazım olan bütün şərait yaradılıb, əsgərlər yüksək qayğı ilə əhatə olunublar.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov ordu quruculuğu ilə bağlı bütün tədbirlərdə hərbi hissələrin komandir-zabit heyətindən bir vəzifə olaraq tələb edir ki, çətin və mürəkkəb şəraitdə döyüş tapşırıqlarını icra edən şəxsi heyətin bütün qayğılarına diqqət göstərilməli, ön xətdə yerləşən bölmələrin madditexniki təminatına ciddi fikir verilməlidir. Şübhəsiz, ordu rəhbərliyinin belə səfərləri şəxsi heyətin də dərin marağına səbəb olur və hər kəsi xidmətdə yeni-yeni uğurlar qazanmağa ruhlandırır.



Müdafiə Nazirliyinin Mətbuat Xidməti tərəfindən yayılan məlumatda göstərildiyi kimi, Prezident, Ali Baş Komandan İlham Əliyevin tapşırığına əsasən, sentyabrın 1- də cəbhə xəttindəki hərbi birliyə səfər edən Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti hərbi hissənin ərazisində ümummilli lider Heydər Əliyevin büstünü ziyarət edərək önünə gül dəstələri qoyublar.

Sonra nazir və rəhbərliyin digər nümayəndələri ön xətdəki bölmələrə gedərək döyüş növbətçiliyi keçirən şəxsi heyətlə görüşüblər. Əsgərləri Qurban bayramı münasibətilə təbrik edən və onların sosial-məişət qayğılarıyla maraqlanan Müdafiə nazirinə əməliyyat şəraiti ilə bağlı məruzə edilib. Nazir bölmələrin döyüş hazırlığı səviyyəsini və döyüş növbətçiliyinin təşkilini yoxlayıb, qarşıda duran vəzifələri dəqiqləşdirib. Ön xətdə əsgərlərlə səmimi söhbət edən general-polkovnik Zakir Həsənov əminliklə bildirib ki, ordu quruculuğuna diqqət və qayğı daim dövlətimizin, Ali Baş Komandanın diqqət mərkəzindədir. "Hər bir əsgər, zabit, gizir bilməlidir ki, bu gün dövlətimiz və xalq bizə böyük etimad göstərir. Bu etimadı layiqincə doğrultmaq isə əsas məqsədimizdir".



Sonra ön xətdə qurbanlar kəsilib, hərbi qulluqçulara bayram sovqatları verilib. Müdafiə naziri hərbi xidmətdə fərqlənənləri mükafatlandırıb və onlara döyüş növbətçiliyində uğurlar arzulayıb. Çay süfrəsi arxasında əsgərlərlə səmimi söhbət edən nazir bayram arzularını bölüşüb. Əmin olduğunu bildirib ki, döyüş hazırlığını günbəgün artıran ordumuz Ali Baş Komandanın rəhbərliyi ilə tezliklə torpaqlarımızı işğalçılardan təmizləyərək ölkəmizin ərazi bütövlüyünü təmin edəcəkdir.

**"Azərbaycan Ordusu"**

# Müdafiə naziri cəbhə bölgəsində "Açıq qapı" günündə iştirak edib

*Sentyabrın 2-də Qurban bayramı münasibətilə hərbi hissələrdə keçirilən "Açıq qapı" günündə Müdafiə Nazirliyinin rəhbər heyəti iştirak edib.*



Müdafiə naziri general-polkovnik Zakir Həsənov hərbi hissələrdə əsgər valideynləri, müharibə və əmək veteranları, şəhid ailələri və ictimaiyyət nümayəndələri ilə görüşərək Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin tapşırığına əsasən, Silahlı Qüvvələrdə həyata keçirilən tədbirlər, şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə görülən işlər, yeni inşa edilən hərbi şəhərciklər və digər məsələləri onların diqqətinə çatdırıb, qonaqları maraqlandıran suallarla bağlı fikirlərini bölüşüb.





Ziyarətçilər hərbi hissədə yaradılmış şəraitlə tanış olublar. Sonra xatirə olaraq hərbi hissə ərazisində çinar ağacları əkilib.

Bayram münasibətilə qurbanlar kəsildikdən sonra qonaqlar əsgər yeməkxanasında birgə nahar ediblər.

Keçirilən tədbirdən və hərbi hissədə şəxsi heyət üçün yaradılan şəraitdən məmnun qalan valideynlər dövlət başçısına Silahlı Qüvvələrə göstərdiyi diqqət və qayğıya görə minnətdarlıqlarını ifadə ediblər.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

*Təlim*

# Tankçıların uğurları

Bu il iyulun 29-dan avqustun 12-dək Rusiya Federasiyasının Alabino təlim mərkəzində keçirilən Beynəlxalq Ordu Oyunları çərçivəsində 19 ölkədən 57 tank heyətinin iştirak etdiyi "Tank biatlonu" müsabiqəsində Azərbaycan tankçıları uğurlu nəticə göstəriblər. Yarışda Əlahiddə Ümumqoşun Ordunun tankçıları da iştirak edib. Azərbaycan Silahlı Qüvvələrini təmsil edən 3 tank heyəti sırasında Əlahiddə Ümumqoşun Ordunun tankçılarından gizir Əlikərəm Bədəlov və gizir Ceyhun Şıxzadayev də vardı. Azərbaycan tankçıları hədəfləri ustalıqla vurub, manevrləri bacarıqla keçib, yüksək idarəçilik qabiliyyəti nümayiş etdirərək 19 ölkə arasında 5-ci yerdə qərarlaşıblar.

"Tank biatlonu" müsabiqəsində yüksək peşəkarlıq göstərən Əlahiddə Ümumqoşun Ordunun tankçıları gizir Əlikərəm Bədəlov yarışa cəlb olunan şəxsi heyət arasında ən yaxşı tank komandiri, gizir Ceyhun Şıxzadayev ən yaxşı tuşlayıcı-operator seçilib. Mükafatlandırma mərasimində gizir Əlikərəm Bədəlova medal və qiymətli hədiyyə təqdim edilib.

2011-2013-cü illərdə müddətli həqiqi hərbi xidmətdə olan Əlikərəm tank bölməsində tuşlayıcı vəzifəsini yerinə yetirib. Həmin vaxtdan Əlikərəm Bədəlovda tankçı ixtisasına maraq yaranır. Gizir Əlikərəm Bədəlov 2013-cü ildən Əlahiddə Ümumqoşun Orduda tank komandiri vəzifəsində xidmət edir. İstər əsgər kimi, istərsə də gizir kimi xidməti dövründə həmişə nümunəvi xidməti ilə valideynlərinə və komandirlərinə başucalığı gətirən Əlikərəm Bədəlov qarşıya qoyulmuş tapşırıqları vaxtında və dəqiq yerinə yetirən döyüşçü kimi formalaşıb. Onun sonuncu uğuru isə "Beynəlxalq Ordu Oyunları-2017" çərçivəsində təşkil olunan "Tank biatlonu" müsabiqəsində olub.

Söhbət zamanı gizir bildirdi ki, müasir tanklar ən yeni silahlarla təchiz edilmiş döyüş maşınlarıdır. "Tankların möhkəm, davamlı zirehi, güclü dizel mühərrikləri, müasir idarəetmə cihazları vardır. Bütün bunlar da tankçıları yenilməz edir. Həm də bizi yenilməz edən məşğələ və təlimlərdə qazandığımız döyüş vərdişləridir."



Digər tank komandiri gizir Ceyhun Şıxzadayev isə 1988-ci ildə Bakı şəhərində anadan olub. 2007-2009-cu illərdə əsgər kimi həqiqi hərbi xidmət keçib. Vətənə olan sevgisi və hərbi xidmətə böyük marağı onu gizir hazırlığı kursuna gətirib. 2010-cu ildən xidmətini Naxçıvan Muxtar Respublikasında davam etdirməkdədir. Xidməti dövründə müxtəlif təltiflərə layiq görülüb, "Tank biatlonu" müsabiqəsində "Ən yaxşı tuşlayıcı-operator" adına layiq görülüb.

Gizirin dediklərindən: "Döyüşdə qələbə qazanmaq üçün hər kəs öz silahını və döyüş texnikasını mükəmməl bilməlidir. Buna görə də bütün döyüş tapşırıqlarını vaxtında və dəqiq yerinə yetirmək üçün bizə təhkim edilmiş silah və texnikanın sirlərinə yaxından bələd olur, onları saz vəziyyətdə saxlamağa çalışırıq. Rusiya Federasiyasında keçirilən "Beynəlxalq Ordu Oyunları-2017" çərçivəsində təşkil olunan "Tank biatlonu" müsabiqəsində nailiyyət qazanmağımız da dərslərdə əldə etdiyimiz təcrübə sayəsində mümkün olub. Təbii ki, bütün bunlar bizi hərbi xidmətə daha da ruhlandırır."

Beynəlxalq Ordu Oyunlarında Azərbaycan Silahlı Qüvvələrinin nümayəndələri ötən ildən iştirak edirlər. Amma qısa müddətdə hərbi qulluqçularımız ən yaxşı nəticə göstərənlər sırasında olurlar. İşğalçı erməni ordusunun nümayəndələrinin də iştirak etdiyi yarışlarda bizim hərbi qulluqçularımız düşməni hər dəfə üstələyir.

Bu gün Əlahiddə Ümumqoşun Ordunun şəxsi heyəti də təkcə yarış və təlimlərdə deyil, real döyüşlərdə də zəfər qazanmağa hazırdır.

**Leytenant**
**Nəriman NƏCƏFOV**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Hərbi Hava Qüvvələrində NATO-nun mobil qrupu tərəfindən təlim kursu keçirilir

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin NATO ilə 2017-ci il üçün Fərdi Tərəfdaşlıq üzrə Əməkdaşlıq Proqramına əsasən, Hərbi Hava Qüvvələrində NATO-nun mobil təlim qrupu tərəfindən müxtəlif aidiyyəti mövzular üzrə təlim kursu keçirilir.

Hərbi Hava Qüvvələrinin hərbi qulluqçularının iştirak etdiyi təlim kursu sentyabrın 8-dək davam edəcək.

## Silahlı Qüvvələrimizin nümayəndələri beynəlxalq tədbirdə iştirak edirlər

Sentyabrın 4-dən 10-dək Seul şəhərində (Koreya Respublikası) "Qeyri-müəyyənlik dövründə təhlükəsizlik sahəsində əməkdaşlığa baxış" mövzusunda Seul Müdafiə Dialoqu keçirilir.

Tədbirdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndələri də iştirak edirlər.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***5 sentyabr 2017-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 107 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Dovex, Barekamavan kəndlərində və adsız yüksəkliklərdə, İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Qaymaqlı, Cəfərli, Bala Cəfərli kəndlərində, Berd rayonunun Nerkin Karmirağbur, Mosesqex, Çinari kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli, Ağdam, Əsrik Cırdaxan, Ağbulaq, Muncuqlu kəndlərində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Yarımca, Ağdam rayonunun Baş Qərvənd, Abdinli, Qaraqaşlı, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Tərtər, Ağdam və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# Qurban bayramı hərbi hissələrdə “Açıq qapı” günü ilə birgə qeyd edildi

*Müdafiə nazirinin tapşırığına əsasən, sentyabrın 2-də Qurban bayramı münasibətilə bütün hərbi hissələrdə “Açıq qapı” günü keçirilib. Bu tədbirlərdə ənənəvi olaraq ümummilli liderimiz Heydər Əliyevin və ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olan insanların xatirəsi ehtiramla yad edilib. Dövlət himni ifa olunub. Həmçinin, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun bayram münasibətilə şəxsi heyətə təbriki oxunub.*



Qurban bayramı münasibətilə cəbhə xəttində yerləşən "N" hərbi hissəsində "Açıq qapı" günü təntənəli qeyd olundu. Tədbirdə Müdafiə Nazirliyinin rəhbər heyəti də iştirak etdi. Müdafiə naziri general-polkovnik Zakir Həsənov Qurban bayramı münasibətilə şəxsi heyəti və tədbir iştirakçılarını salamlayaraq təbrik etdi, onlara möhkəm cansağlığı, uzun ömür və ailə səadəti arzuladı.

"Sizi Qurban bayramı münasibətilə təbrik edir, Vətən naminə müqəddəs və şərəfli xidmətinizdə hər birinizə uğurlar arzulayıram. "Açıq qapı" gününün keçirilməsi ordumuzda artıq dəyərli bir ənənəyə çevrilib. Bu gün əsgərlər üçün yaradılan məişət şəraiti ilə hər kəs yaxından tanış olmaq imkanı qazanır. Belə yüksək məişət şəraiti Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin Azərbaycan əsgərinə olan diqqət və qayğısının bariz nümunəsidir."

Müdafiə naziri aprel döyüşlərində qəhrəmanlıqla şəhid olan kapitan Nəcməddin Savalanovun ailə üzvləri ilə görüşdü, onun övladlarına hədiyyələr təqdim etdi.

Bayram münasibətilə qurbanlar kəsildi.

Valideynlər və qonaqlar yataqxana, yeməkxana, camaşırxana və başqa məişət sahələrini gəzərək övladları üçün yaradılmış şəraitlə yaxından tanış oldular. Hərbi hissədə şəxsi heyət üçün yaradılan şəraitdən məmnun qalan valideynlər dövlət başçısına və Müdafiə Nazirliyinin rəhbərliyinə təşəkkürlərini çatdırdılar.

Əsgər atası Vüqar Hüseynov "Açıq qapı" günündə iştirak etmək üçün Hacıqabul rayonundan gəlib. Oğlu Təbriz 3 aydır ki, hərbi xidmətdədir.

- Oğlumun şanlı ordumuzun sıralarında xidmət etməsindən qürur hissi keçirirəm, - valideyn dedi. - Bu gün oğlumun xidmət yeri ilə tanış oldum. İstilik və soyutma sistemi, rahat yataq dəstləri ilə təmin olunmuş yataqxanaları gördüm. Təmiz və səliqəli əsgər yeməkxanasında qadın aşpazlar tərəfindən dadlı yeməklər hazırlandığının şahidi oldum. Başda Prezidentimiz olmaqla, Silahlı Qüvvələrin bütün rəhbər heyətinə çox sağ olun deyirəm ki, övladlarımız üçün hər cür şərait yaradılıb.

Əsgər anası Nisbət xanım isə Ağsu rayonundan gəlib. O da hərbi hissədə yaradılan şəraitdən razılığını bildirərək, övladlarına göstərilən diqqət və qayğıdan fərəhlə danışdı:



- Müqəddəs Qurban bayramı günündə Müdafiə naziri general-polkovnik Zakir Həsənovun övladlarımızın görüşünə gəlməsi əsgər anası kimi məni çox sevindirdi. Belə yüksək diqqət və qayğıya, yaradılan şəraitə görə bütün əsgər anaları adından cənab nazirimizə minnətdarlığımı bildirirəm.



Bakı şəhər sakini əsgər atası Fəxrəddin Sadıqov da fikirlərini bölüşdü:

- Hərbi hissədə gördüyüm şərait, səliqə-sahman, nizam-intizam ürəyimi açdı. Müdafiə naziri ilə görüş isə lap sevindirici oldu. Rəhbər heyətin bayram gününü əsgərlərlə birgə qeyd etməsi bütün valideynlər kimi məndə də xoş təəssüratlar yaratdı. Əmin olduq ki, övladlarımız yüksək qayğı ilə, heç bir çətinlik çəkmədən uğurlu xidmət edirlər.



* * *

İslam aləmində müqəddəs sayılan günlərdən biri də Qurban bayramıdır. Saflıq və mərhəmət rəmzi olan Qurban bayramı insanları halallığa, paklığa səsləyir. Milli-mənəvi həmrəyliyin, xeyirxah əməllərin, şəfqət və mərhəmət duyğularının təntənəsi olan Qurban bayramı ilə əlaqədar "N" hərbi hissəsində də ənənəvi "Açıq qapı" günü qeyd edilir.

Tədbirdə valideynlər, dövlət və qeyri-hökumət təşkilatlarının nümayəndələri, müharibə veteranları və zabitlər iştirak edirdilər. İnsanların çöhrəsinə hakim kəsilən sevinc hissi, hərbi hissənin ərazisinin bayramsayağı bəzədilməsi bayram ovqatını ikiqat gücləndirirdi.

General-leytenant Rövşən Əkbərov və digər yüksək rütbəli zabitlər, qonaqlar ümummilli liderimiz Heydər Əliyevin hərbi hissənin həyətində ucaldılan büstünü ziyarət edərək abidənin önünə gül-çiçək dəstələri düzdülər.

"Açıq qapı" tədbirinin əlamətdar bir gündə - Qurban bayramı ərəfəsində keçirilməsini vurğulayan general-leytenant Rövşən Əkbərov tədbir iştirakçılarını təbrik edərək dedi:

- Qurban bayramı hər bir azərbaycanlı üçün əziz bayramdır. Hər bir vətəndaş bu bayramı öz qəlbində, evində, obasında, ailəsində bayram edir. Bu bayram insanlara yüksək bəşəri-mənəvi dəyərlərdən faydalanmaq üçün imkan yaradır. Dövlət müstəqilliyimizin bərpasından sonra bu günün rəsmi şəkildə bayram edilməsi xalqımızın öz milli və dini ənənələrinə sədaqətinin parlaq ifadəsidir. Bu əziz gündə hər birimizin bir arzusu var - torpaqlarımız işğaldan azad olunsun. Bu gün Ümummilli Liderimizin layiqli davamçısı olan Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunda qazanılan nailiyyətlər, aparılan islahatlar, orduya göstərilən diqqət və qayğı, Silahlı Qüvvələrimizin əldə etdiyi son aprel zəfəri sübut edir ki, böyük Qələbəyə çox az bir zaman qalıb. İnanıram ki, tezliklə ordumuzun gücü ilə xalqımızın arzusu gerçək olacaq, torpaqlarımız işğaldan azad ediləcək və üçrəngli bayrağımız ata-baba yurdlarımızda dalğalanacaq.

Polkovnik Qurban Qurbanov da çıxışı zamanı qeyd etdi ki, Qurban bayramı ulu əcdadlarımızdan bizə yadigar qalıb. "Bu bayram bizlərə mənən saflaşmağı və nikbinliyi aşılayır. Deyirlər Qurban bayramında arzulananlar reallaşır. Ən böyük istəyimiz yuvasından, elindən ayrı düşmüş qardaş və bacılarımızı öz ocaqlarının başında görməkdir. Səngərlərdə sinəsini sipər edən, Vətənin keşiyində dayanan igid oğullarımız düşmən tapdağı altında qalan torpaqlarımızı tezliklə işğaldan azad edəcəklər. Yenə də həmin yurd yerlərimizdə Qələbə münasibətilə saysız-hesabsız qurbanlar kəsiləcək".

Rəsmi hissənin sonunda yüksək döyüş hazırlığı, döyüş qabiliyyətinin təmin olunması, şəxsi heyətin döyüş ruhunun, şüurlu intizamın möhkəmləndirilməsi, döyüş tapşırığının yerinə yetirilməsində əldə edilmiş nailiyyətlərə görə bir qrup hərbi qulluqçu fəxri fərmanla mükafatlandırıldı.

Tədbirdə, həmçinin şəxsi heyətə Qurban bayramı və onun sonsuz fəzilətləri barədə məlumatlar verildi, dualar oxundu və qurbanlar kəsildi. Valideynlər hərbi hissənin ərazisində nümayiş etdirilən silahlara və döyüş texnikalarına baxdılar.

İmkan tapıb valideynlərlə görüşürəm və onların "Açıq qapı" günü ilə əlaqədar təəssüratlarını öyrənirəm.

Ağdaş rayonundan gələn əsgər anası Sahilə Yusifova hesab edir ki, ən böyük qüruru dövlətimizin gücü və qüdrətli ordumuzdur. Ordu ilə xalqın birliyindən yaranan vəhdət isə gözlənilən Qələbəni daha da tezləşdirir. Sevindirici haldır ki, əziz bir gündə - Qurban bayramında qürurumla ruhumun - ordumla oğlumun görüşünə gəlmişəm. Bu gün məndən xoşbəxt insan yoxdu".

**(Ardı 5-ci səhifədə)**

# Qurban bayramı hərbi hissələrdə “Açıq qapı” günü ilə birgə qeyd edildi

(Əvvəli 4-cü səhifədə)

Əsgər atası Nadir Həziyev də Silahlı Qüvvələrimizin bugünkü qüdrətindən qürur duyur, inanır ki, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin əmri ilə ordumuz hər bir tapşırığı yüksək səviyyədə yerinə yetirmək iqtidarındadır. Nadir Həziyev müharibəyə nifrət edir, istəmir heç zaman insan qanı axıdılsın, yurdlar xarabalığa dönsün. Ancaq qətiyyətlə deyir ki, düşmən torpaqlarımızdan çəkilib getməsə, yaşının bu dönəmində yenidən hərbi forma geyinib keçmiş döyüş yoldaşları ilə çiyin-çiyinə torpaqlarımızın azadlığı uğrunda savaşa qatılmağa hazırdır. Ömrün mənasını yalnız Vətənə xidmətdə görən Nadir Həziyev bu gün əsgər atası olmasının sevincini yaşayır. İnanır ki, əsgər olması ilə ona sevinc bəxş edən oğlu tarixi Qələbənin sevincini də ona bəxş edənlərin sırasında olacaq.

Tədbir əsgər yeməkxanasında hərbi hissənin nümunəvi orkestrinin şəxsi heyət qarşısında maraqlı konsert proqramı ilə başa çatdı. Tədbirdən sonra valideynlər övladlarıyla birgə əsgərlər üçün bişirilən xörəklərdən dadmaq imkanı qazandılar.





* * *

"N" hərbi hissəsində də bayram əhval-ruhiyyəsi vardı. Tədbirdə əvvəlcə əsgər valideynləri və ictimaiyyət nümayəndələri əsgərlərin sosial-məişət şəraiti ilə tanış oldular.

General-mayor Mayis Bərxudarov Qurban bayramı münasibətilə əsgərləri və qonaqları təbrik edərək dedi:

- Azərbaycan qısa zaman ərzində böyük inkişaf yolu keçib. Bu gün sahib olduğumuz müstəqil dövlət, güclü ordu ümummilli lider Heydər Əliyevin misilsiz xidmətlərinin və böyük uzaqgörənliyinin nəticəsidir. Müstəqil Azərbaycan məhz onun hakimiyyəti dövründə inkişaf etdi, qısa zaman kəsiyində güclü ordumuz yarandı və formalaşdı. Bu gün Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə ordunun döyüş qabiliyyəti daha da gücləndi. Biz hər zaman düşmənə cavab verməyə, torpaqlarımızı azad etməyə hazırıq.

Tədbirdə çıxış edən Xocavənd rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov da əsgər və zabitləri bayram münasibətilə təbrik etdi.

- Ordu millətin şərəfi, Vətənimizin müdafiəçisi, torpaqlarımızın azad olunmasının təminatçısıdır, - Eyvaz müəllim dedi. - Hər bir bayramda Qarabağımız, torpaq uğrunda canından keçən şəhidlərimiz xatırlanır. Güclü ordumuza, Ali Baş Komandanımıza, torpağını sevən millətimizə güvənirik. Torpaqlarımızın tezliklə işğaldan azad olunacağına hər birimiz əminik.

Hərbi hissə ilə yaxından tanış olduqdan sonra əsgər Tamerlan Ağayevin atası Əmir Ağayev qəzetimiz üçün müsahibə verib yaradılan şəraitdən razı qaldıqlarını bildirdi.

- Oğlum xidmətindən, biz də ordumuzdan razıyıq. Ordu döyüşə qatılan zaman hansı tərəfdə ruh yüksəkliyi varsa, qalib odur. Bu fikir tarix boyu dəfələrlə sübut olunub. Mən tam əminəm ki, belə gözəl şəraitdə xidmət edən əsgər döyüşə ruh yüksəkliyi ilə atılacaq və qalib gələcəkdir.

Tamerlanın nənəsi Mahirə Əliyeva tərtəmiz yataq dəstləri və müasir standartlara cavab verən hamam-camaşırxanadan, əsgər yeməklərindən razı qaldığını bildirdi:

- Yeməkxanada aşpazların qadınlar olduğunu görəndə sevindim, çünki onlar mənim nəvəmə mənim kimi qulluq edirlər. Yeməyin dadına baxanda fikrim daha da dəqiqləşdi. Yaradılan şəraitə görə hər kəsə minnətdarlığımı bildirirəm.

* * *

Səhər tezdəndir. "N" hərbi hissəsinin nəzarət-buraxılış məntəqəsinə gələnlərin sayı durmadan artır. Ölkəmizin müxtəlif guşələrindən əsgər valideynləri, ictimaiyyət nümayəndələri, müharibə veteranları buraxılış məntəqəsinə toplaşırlar. Çox keçmir ki, onlar hərbi hissəyə dəvət olunurlar.

Polkovnik-leytenant Rüstəm Məmmədov ziyarətçilərlə söhbətində bildirir ki, Silahlı Qüvvələrdə bayram günlərinin geniş miqyasda qeyd edilməsi ənənə halını alıb. "Belə tədbirlərin müntəzəm keçirilməsi ordu ilə xalqın birliyinin təntənəsidir. Qətiyyətlə demək olar ki, xalqımızın, Vətənimizin dayağı olan orduya inam hissi cəmiyyətimizdə daha da artıb. Ötən ilin aprel döyüşləri göstərdi ki, ordu ilə xalqın birliyi yenilməzdir. Qurban bayramı münasibətilə keçirilən tədbirlər də Silahlı Qüvvələrimizin şəxsi heyətinin xalqımızın qədim adət-ənənələrinə, mənəvi dəyərlərinə sədaqətinin parlaq təzahürüdür", - deyə zabit bildirdi.

Sonra tədbir mərkəzi meydanda davam etdirildi. Polkovnik-leytenant Rasim Manafov da çıxışında Qurban bayramının qədim tarixə malik olduğunu diqqətə çatdırdı. Bildirdi ki, bu bayram da dahi şəxsiyyət Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra dövlət bayramı kimi geniş qeyd olunmağa başlayıb. Bu bayram xalqımızı birliyə, əmin-amanlığa çağırmaqla hər bir kəsi vətəndaşlıq borcunu şərəflə yerinə yetirməyə ruhlandırır.

Əsgər valideynləri Natiq Rüstəmov, Mahir Həsənov Silahlı Qüvvələrimizin inkişafına göstərilən böyük diqqət və qayğıya görə Prezident, Ali Baş Komandan İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıq ifadə etdilər.



General-mayor Xəqani Cəbrayılov tədbirə gələn qonaqları Qurban bayramı münasibətilə təbrik etdi. O, ordu quruculuğuna ölkə rəhbərliyi tərəfindən xüsusi diqqət yetirildiyini bildirərək qeyd etdi ki, Silahlı Qüvvələrimiz inkişaf etmiş ölkələrin orduları səviyyəsində qurulub. "İşğalçı ölkənin ordusu ilə müqayisədə ordumuz qat-qat güclüdür. Bu gücü, qüdrəti ötən ilin aprel döyüşləri təkcə düşmənə yox, bütün dünyaya göstərdi. Silahlı Qüvvələrimiz Vətənimizin ərazi bütövlüyünü təmin etmək üçün Ali Baş Komandanın əmrini yerinə yetirməyə hazırdır".

Sonra ali rütbəli zabit valideynlərlə, ictimaiyyət nümayəndələri ilə görüşdü və onlarla səmimi söhbət etdi.

Tədbir konsert proqramı ilə başa çatdı.



* * *

"N" hərbi hissəsində də "Açıq qapı" günü özünəməxsus şəkildə təşkil olundu. Polkovnik Qədir Nəsirov tədbirə toplaşanları Qurban bayramı münasibətilə təbrik etdi, hər kəsə xoş arzularını bildirdi.

Polkovnik valideynlərə hərbi hissənin yerinə yetirdiyi döyüş tapşırıqlarından, münaqişə bölgələrində beynəlxalq missiyaları uğurla icra etdiyindən, Azərbaycanın qibtəediləcək dərəcədə nümunəvi təmsil olunduğundan söz açdı.

Valideynlərin sülhməramlıları təmsil edənlərin sırasına necə maraqla, necə sevgilərlə baxdığını sezmək çətin deyildi.

Silahlı Qüvvələrimizin silahlanmasında olan texnikaların, silahların nümayişi də, onların taktiki-texniki xüsusiyyətləri haqqında zabitlərin verdiyi məlumatlar da kifayət qədər maraq doğurdu. Kiminsə dediyi "Belə bir ordu, təbii ki, torpaqlarımızı işğaldan azad edəcək!" kəlmələrindən hamı məmnun oldu. Hiss olunurdu ki, hər kəs ordumuzun qüdrətindən qürur duyur...

Astara rayonundan gələn Nizami Nəhmətov söhbətimizdə dedi ki, oğlum Şamil 3 aydı hərbi xidmətdədi. "Onun belə bir orduda xidmət etməsinin sevincini yaşayırdıq, indi daha dönməz sevgiylə yaşayacağıq."

Zərəngiz Verdiyeva isə Daşkəsəndən gəlib. Oğlu Ruslan 5 aydı xidmət edir. O deyir ki, oğlum hərbi and içəndə də buradaydım.

- Onun xidmət etdiyi hərbi bölmənin şəraiti ilə yaxından tanış olmuşdum. Bugünkü tədbirə görə Müdafiə Nazirliyinin rəhbərliyinə, hərbi hissənin komandirinə, zabitlərinə təşəkkürümü bildirirəm. İnanıram ki, bütün valideynlər mənim kimi sevinirlər. Belə bir şəraitə görə necə də sevinməyəsən.

Həmin gün valideynlər bütün xidmət sahələriylə, əsgərlərin xidmət şəraiti, hamam-camaşırxana və yeməkxana kompleksi ilə yaxından tanış oldular. Anaların baxışlarından fərəh görünürdü, sevinc, qürur hiss olunurdu...

"Açıq qapı" günü Qurban bayramına təsadüf edib. Qurbanlar kəsildi. Hamı qurban kəsilməsinə eyni amalın niyyətiylə baxırdı. "Torpaqlarımız işğaldan azad edilsin! Belə qurbanları işğaldan azad edəcəyimiz torpaqlarda da kəsək!.."

Hərbi hissənin zabitləri, valideynlər, ictimaiyyət nümayəndələri birlikdə nahar etdilər.

Sonda bayram münasibətilə maraqlı konsert təşkil edildi...

**"Azərbaycan Ordusu"**

# Gəncə Qarnizonu Zabitlər Evinin Səyyar Təbliğat Dəstəsi ön xətdə əsgərlərlə görüş keçirib



*Gəncə Qarnizonu Zabitlər Evinin təşkilatçılığı ilə "Vətən Uğrunda!" Səyyar Təbliğat dəstəsi Qurban bayramı münasibətilə ön xətdə yerləşən hərbi hissələrdə və döyüş növbətçiliyi çəkən bölmələrdə şəxsi heyəti ziyarət edib.*

Hərbi qulluqçularla keçirilən görüşlərdə döyüş hazırlığında nizam-intizamın, hərbi biliklərin, peşəkarlığın vacibliyi və mənəvi-psixoloji hazırlıq mövzularında söhbətlər aparılıb, hərbi vətənpərvərlik mövzusunda filmlər nümayiş etdirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, əsgərlər mənəvi kamillik və vəhdət rəmzi olan müqəddəs Qurban bayramı münasibətilə Azərbaycan vətəndaşlarına və dünyanın müxtəlif yerlərində yaşayan bütün soydaşlarımıza, eyni zamanda ordumuza və öz ailə üzvlərinə təbrik ünvanlayıblar.

Sonra musiqi dəqiqələri ilə davam edən görüşlərdə "Vətən Uğrunda!" Səyyar Təbliğat dəstəsinin üzvləri Cavid Məmmədov və Arif Səfərovun vətənpərvərlik ruhunda səslləndirdikləri ifalar əsgərlər və zabitlər tərəfindən alqışlarla qarşılanıb.



# Xəzər donanmasının gəmiləri Azərbaycanda toplantı-yürüş keçirəcək

*Xəzər donanmasının gəmi dəstəsi toplantı-yürüş çərçivəsində Qazaxıstan və Azərbaycan limanlarına baş çəkəcək.*

AZƏRTAC İnterfaks agentliyinə istinadən xəbər verir ki, bunu Rusiya Cənub Hərbi Dairəsinin mətbuat xidmətinin rəisi polkovnik Vadim Astafyev deyib.

Vadim Astafyev bildirib ki, "Velikiy Ustyuq" kiçik raket gəmisi və əlavə edilmiş təchizat gəmilərindən ibarət Xəzər donanmasının gəmi dəstəsi əsas məntəqəni tərk edib və toplantı-yürüş tapşırıqlarını icra etmək üçün açıq dənizə çıxıb. Xəzəryanı ölkələr arasında beynəlxalq əməkdaşlığı inkişaf etdirmək və möhkəmləndirmək üçün rusiyalı dənizçilər dəniz yürüşü vəzifələrinin icrası zamanı iki xarici dövlətin - Qazaxıstanın və Azərbaycanın limanlarına baş çəkəcəklər.

O qeyd edib ki, 25 günlük yürüşdə gəmi dəstəsinin məqsədi Xəzər dənizində Rusiya gəmilərinin hərbi-dəniz mövcudluğunu təmin etməkdir. Həmçinin gəmilərin ekipajları qeyri-qanuni silahlı birləşmələr tərəfindən yarana bilən təhlükələrdən neft və qaz hasilatı sənayesi obyektlərini müdafiə etmək üzrə ikigünlük təlim keçirəcək.

Cənub Hərbi Dairəsinin mətbuat xidmətinin rəisi onu da əlavə edib ki, dəniz yürüşü zamanı birgə manevr üzrə vəzifələr, axtarış-xilasetmə təminatının elementləri işlənib hazırlanacaq, dəniz, hava və sahil hədəflərinə artilleriya atəşi üzrə hərbi tapşırıqlar yerinə yetiriləcək. Gəmi ekipajları yürüş zamanı Xəzər dənizində 2000 mildən çox məsafə qət edəcək, tapşırıqların icrasında koordinasiyanı və hərbi hazırlığı yoxlayacaq.

*Şərh*

# Erməni tarixçi soyqırımı iddialarını və "erməni böyüklüyü" mifini darmadağın etdi

*Bu yaxınlarda erməni əsilli tarixçi, siyasi ekspert Filipp Ekozyantsın sosial şəbəkələrdən birində paylaşdığı "Erməni köçü" adlı videorolik geniş mənada əks-səda doğurdu.*

Ekspert etiraf edir ki, tarixi hadisələri saxtalaşdırmaqla erməni xalqını real dünyadan kənarda saxlamağa çalışırlar və virtual dünyaya köçürmək istəyirlər. "Soyqırımı" anlayışının 20-ci əsrin 40-cı illərində ortaya çıxdığını bildirən tarixçi alim bildirir ki, ermənilərin "qondarma soyqırımı" iddiası cəfəngiyyatdan başqa bir şey deyildir.

Ekspert hesab edir ki, erməni xalqı illərdir "soyqırımı" xülyasına özü inanıb, digər xalqları da inandırmaq xətrinə dünyada veyillənir: "Bu mənada genosid sözü hərfi mənada bizimlə qovuşub. O, hər bir erməni ailəsinin üzvü olub, icazəsiz və çəkinmədən bizim qəlblərimizdə yuva salıb və bizim xalqın həyati şirələrini oradan sorur. Biz qapalı, qəzəbli, kinli olmuşuq və uydurduğumuz dünya ürəyincə olmayan hər kəsi məhv etməyə hazırıq".

Tarixçi alimin söylədikləri bir həqiqətdir və işğalçı ölkənin ekspertləri də təsdiqləyirlər ki, bu proses "təhlükəli mərhələyə qədəm qoyub". Əslinə qalsa, bu xalqın hərəkətlərinin hər zaman təhlükəli mərhələdə olmasını, ermənilərin fırıldaqçılıqdan, saxtakarlıqdan və günahsız adamları qırmaqdan başqa silaha malik olmamasını bir çox tanınmış şəxsiyyətlər - U.Çörçil, A.S.Puşkin, alman səyyahı Alfred Karte, İ.Çavçavadze, Korneli Tatsis, V.Veldişko, Qriboyedov, Nekrasov və başqaları da öz xatirələrində bildiriblər.

Hər zaman ermənilər tarixi saxtalaşdıraraq sübut etməyə çalışırlar ki, guya onlara qarşı törədilmiş "soyqırımı" nəticəsində 1,5 milyon ermənin qətlə yetirilməsi ilə bağlı kütləvi informasiya vasitələrində, sosial şəbəkələrdə Türkiyə və Azərbaycana qarşı şər-böhtan kompaniyası aparır, bu iddianın həqiqət olduğunu dünya ölkələrinə, nüfuzlu ictimai-siyasi təşkilatlara sırımağa çalışırlar.

Qeyd edək ki, ermənilərin soyqırımına məruz qalmaları haqqında dünya dövlətlərinin arxivlərində heç bir tarixi sənəd yoxdur. İllər ərzində dəfələrlə arxiv sənədlərinin araşdırılması, faktların ortaya çıxarılması barədə erməni dövlətinə müraciətlər edilsə də, onlar bu məsələ ilə bağlı həqiqətdən yayınmaq mövqeyi tutublar. Çünki hər zaman onların iddia etdiklərinin əksi baş verib. Belə ki, onların havadarlarının dəstəyi ilə türklərə, azərbaycanlılara qarşı törətdikləri qanlı cinayətlərin - soyqırımlarının, terror aktlarının, vandalizmin və s. dünyada misli-bərabəri olmayıb.

Siyasi ekspert onu da etiraf edir ki, erməni xalqı əsası olmayan iddialarla "tullantıya" çevrilib: "Qonşu xalqlara, xüsusən də türk xalqına qarşı özümüzün sürrealist tələblərimiz və iddialarımızla biz öz coğrafi əhatəmizdə bioloji izqoya (tullantı - red.) çevrilmişik. Və biz heç cür anlaya bilmirik ki, həm bizim "soyqırım" anlayışının yaradıcıları, həm də qonşulara qarşı mənəvi, tarixi və ərazi iddialarının təşkilatçıları - hansılar ki, çox gözəl şəkildə erməni xalqının qurbanlıq obrazını tərənnüm edirlər - əslində, bizim amansız və məkrli düşmənlərimizdir".

Bəli, erməni xalqının amansız və məkrli bir düşməni var - cinayətkar Ermənistan hakimiyyəti. Onların Xocalıda, Qaradağlıda, Ağdabanda və digər yaşayış məntəqələrində sələflərinin cinayətkar fəaliyyətinin davamı olaraq törətdikləri soyqırımlar, qətliamlar tarixin səhifəsindən heç vaxt silinməyəcəkdir. Dağlıq Qarabağ və onun ətraf bölgələrində törədilmiş qanlı cinayətlər tarixi keçmiş deyil, artıq bugünkü reallıqdır. Bu cinayətlər nəticəsində Dağlıq Qarabağ və onun ətraf rayonlarında minlərlə dinc əhali qətlə yetirilib.

Açıq-aydın görünür ki, Serj Sarkisyanın həyata keçirdiyi siyasət yarıtmazdır. Erməni ekspertlər onu da israrla vurğulayırlar ki, ölkənin beynəlxalq aləmdən təcrid olunmasının əsas səbəbi İrəvanın yanlış xarici siyasətidir. Bu, maraqlı məqamdır, çünki indiyə qədər ermənilər bütün bəlaların baiskarı kimi Azərbaycan və Türkiyəni ittiham edirdilər. Görünür, artıq həqiqəti etiraf etmək vaxtı çatıb. Bir çox siyasi ekspertlər, o cümlədən erməni ekspert Akop Badalyan hesab edir ki, Azərbaycanın xarici siyasətdə qazandığı nailiyyətlər Ermənistan rəhbərliyini hakimiyyətdə qalmaq üçün müxtəlif vasitələrə əl atmağa təhrik edir.

Ermənistandan fərqli olaraq beynəlxalq hüquq normalarına, demokratik dəyərlərə üstünlük verən Azərbaycan dövləti düzgün xarici siyasət yürüdür. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu daxili və xarici siyasət hesabına uğurlu və sürətli inkişaf yolundadır. Azərbaycanın inkişaf səviyyəsi Ermənistanın inkişaf səviyyəsi ilə müqayisəedilməzdir. Bu onu sübut edir ki, Ali Baş Komandan İlham Əliyevin qətiyyəti sayəsində gec-tez işğal altında qalan torpaqlarımız geri qaytarılacaq, ərazi bütövlüyümüz və suverenliyimiz bərpa olunacaq.

Ancaq video-çarxının sonunda Filipp Ekozyants erməni xislətini ortaya qoyur. Belə ki, ekspert hesab edir ki, digər bütün xalqlar kimi onların da qədim keçmişi var: "Mən dəfələrlə təkrar eləmişəm və yenə təkrar edirəm: bizim güclü dövlətimiz olub. Onun adı Osmanlı İmperiyasıdır. Və biz orada erməni etiqadlı osmanlılar olmuşuq. Bizim heç bir başqa dövlətimiz gerçəkdə mövcud olmayıb. Varisi yalnız erməni xalqı olan dövlət də yüz faiz olmayıb. Mən yalnız təsdiqlənmiş və sizə məlum olan faktlara əsaslanaraq öz keçmişimiz haqda həqiqəti daha ətraflı şəkildə təqdim edəcəyəm".

Əslində, Ermənistanın bütün "tarixi" və "tarixi iddiaları" - "Böyük Ermənistan", "Erməni soyqırımı" və s. yalanlar üzərində qurulub. Halbuki, dünya tarixşünaslığında erməni adlandırdığımız hayların tarixi qədər qarmaqarışıq və saxta tarixə rast gəlmək mümkün deyil.

Ermənilərin kütləvi surətdə indi Ermənistan adlanan əraziyə İrəvan xanlığının Rusiya tərəfindən işğalından sonra imzalanan Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələrinin şərtlərinə əsasən, İran və Türkiyədən köçürüldüyünü nəzərə alaraq belə qənaətə gəlmək olar ki, indiki Ermənistan Respublikasının ərazisinin və onun paytaxtı İrəvanın ermənilərə heç bir aidiyyəti yoxdur.

Təəssüf ki, Ermənistan bu gün də qondarma "erməni soyqırımı" cəfəngiyyatını gündəmdə saxlayaraq işğalçılıq siyasətini davam etdirməkdədir. Görünür yalnız bir yolla - müharibə yolu ilə tarixi ədaləti bərpa etmək olar. Bu tarixi ədaləti də xalqımız, dövlətimiz, Azərbaycan Ordusu bərpa edəcək.

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

*Asudə vaxt*

# “Biz tezliklə qələbə qazanacağıq!”

Asudə vaxt şəxsiyyətin hərtərəfli inkişafı, fiziki, mənəvi və estetik mədəniyyətini yüksəltmək üçün əsas vasitədir. Ona görə də bütün hərbi hissələrdə asudə vaxtı səmərəli təşkil etmək üçün məqsədyönlü işlər görülür. Əsgər yataqxanasında ideoloji otaqlar və istirahət guşələri yaradılır. Belə şərait əsgərlərin mənəvi cəhətdən kamilləşməsinə, estetik mədəniyyətinin yüksəlməsinə zəmindir. Asudə vaxt zamanı əsgərlər qəzet və jurnallardan hərbi biliklərini artırır, tariximizdən bəhs edən filmlər izləyir, dama, şahmat kimi stolüstü idman oyunları oynayırlar.



Ön xətdə yerləşən hərbi hissənin yataqxanasında olarkən asudə vaxtlarını mənalı keçirən əsgərlərlə söhbətləşdim. Yataqxanadakı səliqə-sahman, təmizlik göz oxşayırdı. İstirahət otağına üz tuturam. Əsgərlər arasında maraqlı oyun gedir. Vüsal İbrahimov ilə Əli Nəcəfov şahmat, Ceyhun Allahverdiyev və Osman Osmanov isə dama oyununda qalib adı uğrunda mübarizə aparırlar.

Şahmat oyununda cüzi üstünlüklə qalib olan Əlini təbrik edirəm. O, hərbi xidmətə Hacıqabul rayonundan çağırılıb. 14 aydır xidmətdə olan əsgər Nəcəfov burada üstün keyfiyyətlərə yiyələndiyini deyir. "Hərbi xidmət məni qorxmaz, mərd, cəsur döyüşçü kimi formalaşdırıb. Peşəkar komandirlərimizdən döyüş hazırlığı, silahlar haqqında biliklər öyrənirəm. Sosial-məişət şəraitimizin qaydasında olması uğurlu xidmətimiz üçün zəmin yaradır. Heç bir çətinlik çəkmədən ordumuza layiqli xidmət aparıram", - əsgər deyir.

Silahdaşının əlini sıxaraq onu təbrik edən əsgər İbrahimov da fikirlərini bölüşür:

- Asudə vaxtlarımızda Əli ilə tez-tez şahmat oynayırıq. Hər ikimiz də bu oyunu sevirik. Hərdən o, hərdən də mən qalib gəlirəm. Əlbəttə, bu bir oyundur. Bizim qarşımızda isə daha vacib olan nümunəvi xidmət etmək, Vətən torpaqlarına keşik çəkməkdir. İşğalçıları torpaqlarımızdan qovub çıxarmaqdır.

Əsgəri xidmətə Zaqatala rayonundan çağırılan Osman Osmanov isə dama yarışının qalibi olur. Osman asudə vaxtlarını səmərəli keçirtmək üçün hərbi hissədə hər cür şərait yaradıldığını deyir. "Bizim üçün yaradılan şəraitdən çox razıyam. Bilikli, bacarıqlı və tələbkar komandirlərimiz bizə həm hərbi biliklər öyrədir, həm də yüksək qayğı göstərirlər. Hər birimiz torpaqlarımızı işğaldan azad etmək üçün döyüşə atılmağa hazırıq. Ata-baba ocaqlarımızı düşmən tapdağından qısa zamanda azad edəcəyik. Biz tezliklə qələbə qazanacağıq!"

Söhbətə Ceyhun Allahverdiyev qoşularaq qələbə sevincini döyüş meydanında düşmən üzərində birlikdə yaşamağı arzu edir.

- Aprel döyüşlərində bütün dünyaya sübut etdik ki, erməni əsgərlərindən daha güclüyük. Sülh yolu ilə torpaqlarımızı geri qaytarmasalar, müharibə yolu ilə qaytarmağ gücünə qadir olduğumuzu hər kəs gördü. Mən arzu edirəm ki, tez zamanda Şuşaya sancılan Azərbaycan bayrağının kölgəsində böyük qələbəmiz münasibətilə bir-birimizi təbrik edib deyək ki, Azərbaycan Ordusu qalib gəldi!

Əsgərlərimiz arasında mehribanlığı, səmimiyyəti, Vətən sevgisini hiss etdim. Gözlərində düşmənə qəzəbin alovlandığını gördüm. Bir daha əmin oldum ki, Qarabağ həsrəti ilə xidmət edən bu igid oğullar tezliklə düşmən üzərində qələbə qazanaraq xalqımızı sevindirəcəklər...

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**C.CƏFƏROVUNDUR**

## Ermənistan ordusunda daha bir müəmmalı ölüm hadisəsi baş verib

*Ermənistan sosial şəbəkələrində daha bir hərbi qulluqçunun ölümü barədə paylaşmalar yayılıb.*

AZƏRTAC xəbər verir ki, ölən hərbi qulluqçunun yaxınlarının verdiyi məlumata görə, işğal olunmuş Xocavənd rayonunda yerləşən Ermənistan ordusunun bölmələrindən birində sentyabrın 2-də müəmmalı şəraitdə ağır yaralanan, Kanakerdən olan hərbi qulluqçu Qvidov Petrosyan hərbi tibb məntəqəsinə gecikdirildiyindən dünyasını dəyişib.

Hərbçinin valideynlərini qəzəbləndirən isə istintaq sirri olması bəhanəsi ilə Q.Petrosyanın hansı şəraitdə, nə səbəbdən öldüyü, yaxud öldürüldüyü barədə onlara heç bir xəbərin verilməməsidir.

*Redaksiyamızın poçtundan*

# İnamımız, güvəncimiz



Biz əsgərik. Vətəni qorumaq da, torpaqlarımızı işğaldan azad etmək də bizim borcumuzdur. Çox istərdik ki, qələbə sevincini əsgər kimi yaşayaq.

Əsgər olaraq hərbi nizamnamələrin tələblərinə ciddi əməl edirik, komandirlərimizin, zabitlərin bütün tapşırıqlarını, əmr və göstərişlərini böyük məsuliyyətlə yerinə yetiririk. Bilirik ki, intizam hərbi xidmət üçün başlıca şərtdir.

Döyüş hazırlığımızı müntəzəm artırırıq. Zabitlərin söhbətləri oxuduğumuz-öyrəndiyimiz bilikləri daha da dərinləşdirir ki, bu da mənəvi-psixoloji hazırlığımızda mühüm rol oynayır.

Bu günlərdə bütün hərbi hissələrdə olduğu kimi, bizim hərbi hissədə də "Açıq qapı" günü keçirildi. Müdafiə nazirimiz general-polkovnik Zakir Həsənovun əmriylə keçirilən "Açıq qapı" günü valideynlərə də, əsgərlərə də xoş ovqat yaratdı. Valideynlər oğullarının xidmət yerləri ilə yaxından tanış oldular. Bir daha əmin oldular ki, Azərbaycan Ordusunun əsgərləri üçün gözəl, nümunəvi, bəlkə də həsəd aparılası şərait yaradılıb. Həmin gün yaşlı bir kişinin dedikləri də mənim bu qənaətimin təsdiqi idi. "SSRİ Silahlı Qüvvələrində, Almaniyada xidmət etmişəm. Heç yerdə belə şərait görmədim. Çox şadam ki, nəvəm belə bir şəraitdə xidmət edir. Yaradılmış gözəl şəraitə görə Ali Baş Komandana, Müdafiə nazirinə minnətdarıq..."

Valideynlərin hərbi hissəmizdən bu ovqatla qayıtması biz əsgərlərin xidmətə məsuliyyətini daha da artıracaqdır.

Aprel döyüşlərini, o döyüşlərin qəhrəmanlarını unutmuruq. Heç zaman da unutmayacağıq. O döyüşlər təsdiqlədi ki, Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Sülh danışıqları baş tutmasa döyüşəcəyik. Xalqın arzuladığı Böyük Qələbəni qazanacağıq. Ordu sıralarından qalib ordunun əsgəri kimi tərxis olunmaq istəyirik. Xalq orduya inanır, güvənir. Bu inam, bu güvənc bizi qürurlandırır.

"Açıq qapı" gününü əsgərlər də, valideynlər də böyük sevinclə yaşadılar.

**Əsgər**
**Firdovsi HACIYEV,**
**"N" hərbi hissəsi**

# Ordudakı problemlərdən danışan erməni zabit həbs ediləcək

İşğalçı Ermənistan silahlı qüvvələrinin Madagizdə yerləşən 33651 nömrəli hərbi hissəsinin zabiti kapitan Edik Poqosyan xidmətdə rastlaşdığı problemlər, Ermənistan ordusunda olan cinayətlər, yüksək vəzifəli hərbçilərin özbaşınalığı haqqında sosial şəbəkələrdə paylaşımlar etdiyinə görə təqiblərə məruz qalıb.

AZƏRTAC Ermənistan sosial şəbəkələrinə istinadən xəbər verir ki, aktiv sosial şəbəkə istifadəçisi olan kapitan Poqosyan xidmət etdiyi hərbi hissədə baş verən mənfi hallar, özbaşınalıqlar və ölüm hadisələri barədə öz fikirlərini bölüşüb. Bundan sonra o, komandanlıq tərəfindən təzyiqlərə məruz qalıb. Haqsızlıqlara dözməyən Ermənistan ordusunun kapitanı çıxış yolunu qaçıb canını qurtarmaqda görüb. İlk cəhddən sonra valideynlərinin köməyi ilə hərbi hissəyə qaytarılan zabit yenə də böyük çətinliklər və təhqirlərlə üzləşdiyindən xidmət yerini yenidən tərk edib.

Hadisə ilə bağlı kapitan E.Poqosyan barəsində cinayət işi açılıb və axtarış elan edilib. İstintaq davam edir.

# Xəbərlər:
## hadisələr, faktlar

### Türkiyədə PKK-ya qarşı növbəti əməliyyatlarda dörd terrorçu öldürülüb



Türkiyənin Şırnak bölgəsində PKK terror təşkilatına qarşı əməliyyat təşkil edilib. Nəticədə iki terrorist öldürülüb və çoxlu sayda silah-sursat ələ keçirilib.

Terror törətməyə hazırlaşan PKK üzvləri təhlükəsizlik qüvvələri tərəfindən zərərsizləşdirilib. Hadisə ilə bağlı araşdırmalar davam etdirilir. Həmçinin Qəhrəmanmaraşda PKK-ya qarşı təşkil olunan əməliyyat nəticəsində 2 terrorçu məhv edilib, 3-ü sağ olaraq ələ keçirilib.

### Frankfurtda İkinci Dünya müharibəsinə aid bomba zərərsizləşdirilib



Almaniyanın Frankfurt şəhərində qazıntı zamanı İkinci Dünya müharibəsinə aid bomba tapılıb.

Bombanın zərərsizləşdirilməsi üçün 70 min nəfər təxliyə edilib. Təhlükəsizlik qüvvələri küçələri, iki böyük xəstəxana və qocalar evini tamamilə boşaldıblar. Həmçinin şəhər bankından 1,7 ton qızıl təhlükəsiz yerə aparılıb.

Qeyd edilib ki, bombanın zərərsizləşdirilməsi üçün 12 saat vaxt tələb olunub.

### İraqda İŞİD-in 61 üzvü öldürülüb



İraqın müxtəlif yerlərində keçirilən əməliyyatlarda İŞİD terror təşkilatının 61 üzvü öldürülüb.

Telafer şəhərində Əl-Ayyadiyyə qəsəbəsinin şimal-qərbində və şərqində türkmənlər tərəfindən təşkil edilən əməliyyatda 55 terrorçu, Kərkükün cənub-qərbində yerləşən Ər-Riyad şəhərində isə 6 terrorçu öldürülüb.

### Koreya Respublikasının hərbi dəniz qüvvələri Yapon dənizində yeni təlimlər keçirib



Koreya Respublikasının hərbi-dəniz qüvvələri Yapon dənizində yeni təlimlər keçirib.

Məqsəd rəsmi Seulun Şimali Koreyaya qarşı güc tətbiqi variantına da hazır olduğunu nümayiş etdirmək olub. Təlimlərə friqad, patrul və sürətli gəmilər cəlb olunub. Cənubi Koreya Müdafiə Nazirliyinin rəsmi nümayəndəsi bildirib ki, təlimlərin məqsədi istənilən hərbi təxribata dərhal cavab veriləcəyini nümayiş etdirməkdir. Rəsmi Seul, həmçinin Şimali Koreyanın yeni raket sınağına hazırlanması ilə bağlı xəbərdarlıq edib.

Xatırladaq ki, Koreya Xalq Demokratik Respublikası növbəti dəfə nüvə silahını sentyabrın 3-də sınaqdan keçirib.

### Dubayda “at nalı” formasında göydələn inşa edilir



Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində "at nalı" formasında göydələnin tikintisinə start verilib.

BƏƏ-nin "Arabian Business" nəşrinin məlumatında deyilir ki, inşa edilən binanın A və B qalalarından ibarət olması nəzərdə tutulub. A qalası 19 mərtəbəli olmaqla özündə 257 studiya tipli 2 və 3 otaqlı mənzilləri, hovuz, spa və idman zallarını, uşaqlar üçün oyun meydançasını birləşdirəcək. B qalası isə 18 mərtəbəli olmaqla 90 ədəd 3, 4 və 5 otaqlı mənzillərdən ibarət olacaq.

Qeyd olunur ki, yaşayış kompleksindəki mənzillərin qiyməti 225 min ABŞ dollarından başlayacaq.

**AZƏRTAC-ın materialları əsasında**

# Aprel şəhidi Ravil Novruzovun xatirəsinə həsr olunmuş cüdo turnirinin qalibləri mükafatlandırılıb




*Xızıda aprel şəhidi Ravil Novruzovun xatirəsinə həsr olunmuş cüdo üzrə açıq rayon birinciliyinin qalibləri mükafatlandırılıb.*

AZƏRTAC xəbər verir ki, yarış iştirakçıları əvvəlcə şəhidin məzarını ziyarət edib, xatirəsini ehtiramla anıblar.

Birinciliyin açılış mərasimində çıxış edənlər Ermənistan silahlı qüvvələrinin təxribatları nəticəsində cəbhə bölgəsində gedən döyüşlərdə şəhid olan gizir Novruzov Ravil Elman oğlunun döyüş yoluna nəzər salıblar. Ravilin vətənpərvər övlad olmasından, doğma Vətəni Azərbaycana sevgisindən danışılıb. Bildirilib ki, Azərbaycan Silahlı Qüvvələrinin giziri Ravil Novruzov ölümündən sonra "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medala layiq görülüb.

Artıq ikinci ildir şəhidin doğum günü ərəfəsində keçirilən turnirə Xızı ilə yanaşı, Sumqayıt, Xaçmaz və Qusar cüdoçuları da qatılıblar. Ümumilikdə 100 idmançı 9 çəki dərəcəsində medallar uğrunda mübarizə aparıb.



Yarışda komanda hesabında Sumqayıt cüdoçuları hamıdan çox medal qazanaraq birinci olublar. Qusarlı idmançılar ikinci, Xızı komandası isə üçüncü yerə layiq görülüb. Qalib idmançılar medallar və diplomlarla mükafatlandırılıb.

*Hərbi ənənələr, yeniliklər*

# JF-17 qırıcısı




Çoxməqsədli qırıcılar Çinin Çendu korporasiyası və Pakistanın RAC konserni ilə birlikdə 1990-cı ilin sonunda və 2000-ci ilin əvvəllərində hazırlanıb.

JF-17 qırıcısı aerodinamik sxem üzrə, alüminium ərintilərindən hazırlanıb. Kabinəsinin fənərləri iki seksiyalıdır. Onun tir hissəsində tormozlu paraşütlə konteyner yerləşdirilib. Şassisinin bütün dayaqları birtəkərlidir. Burun hissəsində olan təkərlər idarəolunandır və uçuş istiqaməti üzrə gövdəyə yığılır. Təyyarənin kabinəsində Çin və İngiltərə istehsallı katapultlu oturacaq quraşdırılıb. Bu da ona idarəetməni təmin etməyə tam imkan verir. Silahlanmasına Rusiya istehsallı toplar daxildir. Daxili asılqanın yeddi nöqtəsində "hava-hava" sinifli az məsafəli RL-7 və ya orta məsafəli PL-10 raketlərinin yerləşdirilməsi də nəzərdə tutulub.

Onun güc qurğusu iki ədəd TRDDF RD-93 forsajlı kameralı turboreaktiv mühərrikdən ibarətdir, maksimal döyüş çəkisi 3,8 ton, tavanın hündürlüyü 16500 m, uçuş uzaqlığı 3000 kilometrdir. Maksimal uçuş çəkisi 12,7 ton, sürəti saatda 1700 kilometr, qanadlarının açılması 9 metr, sahəsi isə 35,3 kv.m. təşkil edir. Uzunluğu 13,95 metr, hündürlüyü isə 5,1 metrdir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Ermənistan ordusunda intihar edənlərin sayı cəbhə xəttində ölənlərə nisbətən daha çoxdur

Ermənistan ordusunda sıravi hərbi qulluqçuların vəziyyəti dözülməzdir. Bəzi əsgərlər zabitlərin davranışlarına dözməyərək intihar edirlər.

AZƏRTAC xəbər verir ki, bu sözləri Ermənistan ordusunun keçmiş əsgəri David Arian "Facebook" sosial şəbəkəsindəki səhifəsində yazıb.

D.Arian bildirib ki, övladlarının daha bir ay da xəstəxanada qalması üçün öz əmlaklarını satan və ya kredit götürən xeyli sayda insan tanıyıram. Cinsindən asılı olmayaraq, hərbi xidmət asan iş deyil. Hərbi xidmətdəki çətinliklərin öhdəsindən gəlməkdə mənəvi çətinlik çəkən və buna görə dözməyərək intihar edən insanlar var. Özü də bu yolla ölənlər cəbhədə qarşı tərəfin gülləsindən ölənlərin sayından çoxdur.

Keçmiş əsgər xatirələrini bölüşərək bütün hərbi hissənin bir anda bağırsaq infeksiyasından xəstələndiyini qeyd edib: "Elə alındı ki, bütün hərbi hissədə hamıda qanaxma oldu. Tibb məntəqəsində mənə dərman verdilər, amma kömək etmədi. Bağırsaq infeksiyası bütün hərbi hissələrdə yayılır. Ayaqyoluna gedə bilmədiyimizdən 20 gün yeməkxanada heç nə yemədik. Evə zəng edib "Narine" (müalicəvi bitki) göndərmələrini istədim. Xidmətin sonuna qədər ondan içdim. Bu, mənə bir qədər kömək etdi, amma indi də problemlərim var. Xidmət davam edirdi, ağır fiziki işlər, gecə növbəsi, poliqon. Əsgərlərin sağlamlığı ilə əlaqədar problemlər zabitlərin vecinə də deyildi. Hərbi hissədə "Kobra" ləqəbli zabit var idi. Ona bu ləqəbi ona görə veriblər ki, əlini kobra ilanı kimi tutub əsgərlərin alnına vurardı. Başqa bir zabit isə əsgərlərin alnına əli ilə vururdu. Bir neçə dəfə belə halların şahidi olmuşam".

Onun sözlərinə görə, xidmət zamanı "Çyolka" ləqəbli polkovnik-leytenant Ararat Melkumyan əsgəri döyüb: "O, çox qəddar adam idi. Kəmərləri sıx bağlamayan əsgərləri cəzalandırırdı. Əsgərləri yanına çağırır, kəmərin dəmir hissəsi ilə başlarına vururdu. Bir dəfə ayağımdan elə vurdu ki, uşaqlar məni qucaqlarında tibb məntəqəsinə aparmalı oldular. Üç gün yataqda qaldım, bundan sonra isə bir həftə əsa ilə gəzdim".

D.Arian qeyd edib ki, əsgərlərin bir çoxu təhqiredici addımlara dözməyərək intihara cəhd edir. Alçaldıcı hərəkətlər və göstərilən təzyiqlərə görə çoxları damarlarını kəsməyə çalışıb. Hətta bir dəfə əsgər başı ilə tibb məntəqəsinin pəncərəsini qırıb özünü aşağı atdı, xoşbəxtlikdən sağ qaldı. Şəxsi heyət daxilində müharibənin bərpası təqdirində əsgərlərin əvvəlcə geri dönüb öz zabitlərini güllələyəcəyi ab-havası var. Elə əsgərlər var ki, sırf zabitləri öldürmək üçün müharibənin başlamasını istəyir.

# İdman

## Məhəmmədrəsul Məcidov 3-cü dəfə dünya çempionu titulunu qazanıb



Almaniyada kişi boksçular arasında keçirilən dünya çempionatına yekun vurulub.

Həlledici döyüşlərdə Azərbaycan millisinin lideri Məhəmmədrəsul Məcidov da rinqə çıxıb.

91 kiloqram çəki dərəcəsində mübarizə aparan ikiqat dünya çempionumuz qazaxıstanlı Kamşibek Kunkabayevlə üz-üzə gəlib. Döyüş təmsilçimizin qələbəsi ilə yekunlaşıb. M.Məcidov 4:1 (29:28, 28:29, 29:28, 29:28, 29:28) hesabı ilə qalib gəlib.

O, bununla da 3-cü dəfə dünya çempionu tituluna yiyələnib. DÇ-2011 və DÇ-2013-də mundialın qızıl medalını qazanan boksçumuz növbəti qələbə ilə öz rekordunu da yeniləyib.

Beləliklə, 9 gün davam edən dünya çempionatını Azərbaycan millisi 2 medalla başa vurub. M.Məcidovdan əvvəl Kamran Şahsuvarlı (75 kq) adını mükafatçılar sırasına yazdırıb. Olimpiya mükafatçımız yarışı 3-cü pillədə başa vurub.

Qeyd edək ki, yığmamız Hamburqa 4 boksçu ilə yollanmışdı. Onlardan Lorenzo Sotomayor (64 kq) hakimlərin ədalətsizliyi səbəbindən mundialla vidalaşmışdı.

## Universal döyüşçülərimiz Avropa çempionatında uğurla çıxış ediblər



Ukraynanın Koblevo şəhərində universal döyüş üzrə Avropa çempionatı keçirilib. Yarışda ölkəmizi Azərbaycan Universal Döyüş Federasiyasının prezidenti Azər Həsənov və yığma komandanın məşqçisi Elşən İsmayılovun rəhbərliyi altında 17 idmançı təmsil edib.

28 ölkənin iştirakı ilə keçirilən yarışda komandamızın üzvləri böyüklər arasında 4 qızıl, 3 gümüş, 3 bürünc, gənclər arasında 3 qızıl, 1 gümüş, 1 bürünc, yeniyetmələr arasında 1 qızıl, 1 gümüş, 2 bürünc medal qazanıblar.

Böyüklər arasında qızıl medalları komandamızın aktivinə Nicat Əliyev (75 kq, layt və klassik versiyalarda), Səlim Salmanov (90 kq, layt versiya) və Tahir Məsimov (95 kq, layt versiya) yazdırıblar.

## Azərbaycan millisi dünya çempionatının seçmə mərhələsində böyük hesablı qələbə qazanıb



Futbol üzrə dünya çempionatının seçmə mərhələsi çərçivəsində sentyabrın 4-də Azərbaycan millisi San-Marino yığmasını böyük hesabla məğlub edib.

"Bakcell Arena"da keçirilən oyuna millimiz daha fəal başlayıb. Görüşün 20-ci dəqiqəsində yığmamız istəyinə nail olub. Belə ki, Əfran İsmayılov hesabı açıb. Görüşün 25-ci dəqiqəsində Araz Abdullayev hesabda millimizi önə çıxarıb. Qarşılaşmanın birinci hissəsi futbolçularımızın 2:0 hesablı üstünlüyü ilə başa çatıb.

Oyunun 57-ci dəqiqəsində Əfran İsmayılov dubl edib. Qarşılaşmanın 71-ci dəqiqəsində avtoqol qeydə alınıb. Belə ki, San-Marino millisinin futbolçusu Miçel Cevoni topu öz qapısına vurub. Üç dəqiqə sonra san-marinolu futbolçu Mirko Palazzi hesab arasındakı fərqi azaldıb. On dəqiqə sonra millimizin kapitanı Rəşad Sadıqov rəqib qapısına təyin olunmuş cərimə zərbəsini dəqiq yerinə yetirərək fərqlənib.

Beləliklə, Azərbaycan millisi San-Marino yığmasını 5:1 hesabı ilə məğlub edib.

**AZƏRTAC-ın materialları əsasında**

| Məsul katib | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| polkovnik-leytenant İlham BEHBUDOV | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98 Məktublar şöbəsi: (012) 510-64-28; | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | baş leytenant Məhəmməd NƏSİRLİ | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz. | Lisenziya № 361 Sifariş № 361 Nüsxə 4600 |